# Hacıbəyli və başqaları Azərbaycana qarşı
# Qərar – 30.06.2016

İş 2013-cü ildə müxtəlif tarixlərdə 13 Azərbaycan vətəndaşının (**cənab Rüfət İbrahim oğlu Hacıbəyli, cənab Elşad Baba oğlu Budaqov, cənab Vaqif Sərxoş oğlu Xaliqov, cənab Əbülfəz Adəm oğlu Qurbanlı, cənab Orxan Nəriman oğlu Carçıyev, cənab Hafiz Adıgözəl oğlu Fərhadlı, cənab Elçin Fizuli oğlu Carullayev, cənab Məmməd Əziz oğlu İbrahim, cənab İnqilab Qüsrət oğlu Kərimov, cənab Şakir Gürşad oğlu Abbasov, cənab Təzəxan Məhərrəm oğlu Mirələmli, cənab Zülfüqar Xeyrulla oğlu Eyvazov və cənab Bəhruz Qəzənfər oğlu Həsənov**) İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 34-cü maddəsinə əsasən verdiyi şikayət əsasında başlanmışdır.

Hadisələrin baş verdiyi zaman ərizəçilərin əksəriyyəti müxalif siyasi partiyaların və ya qrupların üzvləri idilər.

**İnzibati həbslər**

Ərizəçilər 20 oktyabr və 17 noyabr 2012-ci il tarixlərində keçirilmiş nümayişlərdə iştirak etmişlər və polis nümayişi dağıdan zaman həbs edilmişlər.
Ərizəçilərin sözlərinə görə inzibati xəta haqqında protokolun surətləri və digər iş materialları onlara təqdim olunmamış, onlar tutulduqları vaxt və polis nəzarətində olarkən vəkillə təmin olunmamışlar.

**Ərizəçilər barəsində məhkəmə icraatı**

Birinci instansiya məhkəmələri ərizəçiləri İXM-nin 310.1-ci maddəsi üzrə təqsirli bilərək onlara 5 gündən 13 günədək olan müddətlərə inzibati həbs təyin etmişlər. Ərizəçilərdən biri əlavə olaraq İXM-nin 298-ci maddəsi üzrə də məsuliyyətə cəlb olunmuşdur.

Müxtəlif tarixlərdə Bakı Apellyasiya Məhkəməsi ərizəçilərin şikayətlərini rədd etmiş və birinci instansiya məhkəmələrinin qərarlarını qüvvədə saxlamışdır.

**Məhkəmənin qiymətləndirməsi**

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bu işdə aşağıdakı maddələrin pozuntusuna yol verildiyi nəticəsinə gəlmişdir:

- Konvensiyanın 11-ci maddəsinin pozuntusu (nümayişin dağıdılması və ərizəçilərin tutulması və məhkum olunması ilə bağlı);
- Konvensiyanın 6-cı maddəsinin 1-ci və 3-cü yarımbəndlərinin pozuntusu;
- Konvensiyanın 5-ci maddəsinin pozuntusu.

Məhkəmə hər bir ərizəçiyə mənəvi ziyana görə 12 000 avro və məhkəmə xərcləri və digər məsrəflərə görə birlikdə 9 400 avro məbləğində kompensasiya təyin etmişdir.

**İcra etdi:** İnsan Hüquqları və İctimaiyyətlə
Əlaqələr Şöbəsinin aparıcı məsləhətçisi
Gülarə Abdullayeva
Tel.: 489-07-07 (daxili nömrə - 8095)